# Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının yeni yüksəliş mərhələsi başladı...

**Qardaş Türkiyə daha bir prezident və parlament seçkilərini arxada qoydu. Buradakı seçkilər Azərbaycanda da diqqətlə izlənilir. Bunun ümdə səbəbi xalqalrımızın eyni soykökə bağlılığı və ölkələrimizin strateji müttəfiqliyi, eyni zamanda son illərdə dərinləşən iqtisadi bağlılıqdır. Dövlət Gömrük Komitəsinin göstəricilərinə görə, ötən il Azərbaycanla Türkiyə arasındakı ticarət dövriyyəsi 5 milyard 842 milyon dollar olub.**



Bu, Azərbaycanın toplam ticarət dövriyyəsinin 11.1 faizi deməkdir və həmin nəticə ilə Türkiyə İtaliyadan sonra Azərbaycanın ən böyük ticarət partnyorudur. İxrac və idxal baxımından da Türkiyə ikinci yerdədir. Azərbaycanın ötənilki ixracının 9 faizi, idxalınınsa 16 faizi Türkiyə ilə bağlıdır. Azərbaycanın ən çox ixrac gerçəkləşdirdiyi ölkə İtaliya, ən çox mal gətirdiyi ölkə isə Rusiyadır. Türkiyə ilə ticarətdə bir məqam da diqqət çəkir: müsbət saldo Azərbaycanın xeyrinədir. Ötən ilin sonuclarına görə, Azərbaycanın Türkiyədən ixracı 3.5 milyard dollar, Türkiyədən idxalı 2.3 milyard dollar olub. Beləliklə 1.2 milyard dollarlıq müsbət saldo yaranıb. Azərbaycanın Türkiyədən çox sayda məhsulun idxalını gerçəkləşdirir. Ötən il Türkiyədən toplam 3 min 488 çeşid məhsul gətirilib. İdxalın həcminə görə ilk yeri dərman vasitələri tutur və 2022-ci ildə Azərbaycan Türkiyədən toplam 92.4 milyon dollar dəyərində dərman vasitələri gətirib. İkinci yeri avtobuslar tutur. Ötən il Türkiyədən 233 ədəd avtobus gətirilib. Bu idxalın toplam dəyəri 44 milyon dolları aşıb. Həcmi 30 milyon dolları aşan digər məhsullar sürtkü yağları (35.2 milyon dollar), metal konstruksiyalar (34 milyon dollar), tütün (32.7 milyon dollar) və qadınlar üçün gigiyenik bez və uşaq bezləridir (31.6 milyon dollar). Azərbaycandan Türkiyəyə isə ötən il 665 məhsul çeşidi satılıb. Bu, Türkiyədən Azərbaycana göndərilən məhsul çeşidləri ilə müqayisədə beş dəfəyə yaxın azdır. Azərbaycanın Türkiyəyə ixracında əsas payenerji sektoru ilə bağlıdır. Ötən il Türkiyəyə 2 milyard 208 milyon dollar dəyərində təbii qaz satılıb. Bu, Azərbaycanın toplam idxalının 62 faizi deməkdir. Neft də diqqətə alınsa, Azərbaycanın Türkiyəyə ixracında enerji sektorunun payı 76 faizə yüksəlir. Enerki sektorundan başqa Türkiyəyə ən çox pambıq lifi satılıb (162 milyon dollar dəyərində). Elektrik enerjisi (79.2 milyon dollar) və alüminium (61.3 milyon dollar) da Azərbaycanın Türkiyəyə ixrac etdiyi əsas məhsullar arasındadır. Bu arada qeyd edək ki, Türkiyənin bu gün Avrasiyada əhəmiyyətini artıran daha bir vacib faktor onun enerji mərkəzinə çevrilməsidir. Ümumiyyətlə, proseslərin gedişi göstərir ki, Türkiyə enerji qiymətlərinin müəyyən edilməsi, nəqli sahəsində getdikcə həlledici rol oynamaqdadır. Sözügedən prosesdə Türkiyənin mövqeyinin güclənməsinə təkan verən əsas ölkələrdən biri qismində isə Azərbaycan çıxış edir. Xatırladaq ki, ötən ilin oktyabr ayının 12-14-də Moskvada keçirilən "Rusiya Enerji Həftəsi: 2022" Beynəlxalq Forumunda Rusiya prezidenti Vladimir Putin Türkiyədə Avropada qazın qiymətinin müəyyənləşdirilməsi üçün müvafiq mərkəzlərə alternativ ola biləcək yeni qaz qovşağının yaradılması təşəbbüsü ilə çıxış edib. O, bu məqsədlə Türkiyəyə əlavə qaz kəmərləri çəkməyin lazım gəldiyini və artıq hər iki ölkənin birinci şəxslərinin bu ideyanı dəstəklədiklərini bildirib: "Türkiyədə qaz qovşağı kifayət qədər tez həyata keçirilə bilən real layihədir. Qaz alıcıları həmişə olur, bu, dünyada çox tələb olunan məhsuldur. Qaz ən ekoloji cəhətdən təmiz karbohidrogendir, "yaşıl enerji"yə keçid üçün ideal ilkin enerji mənbəyidir. Mən bilirəm ki, istehlakçılar çoxdur və Rusiya qazını almaq istəyənlər də çoxdur. Türkiyənin Avropaya mümkün tədarük qovşağı kimi seçilməsinə gəlincə, mənə elə gəlir ki, bunu niyə təklif etdiyimiz aydındır. Çünki avropalı tərəfdaşlarla birbaşa işləmək çox çətindir". Məsələ ilə bağlı "Qazprom" ASC-nin Direktorlar Şurasının sədri Viktor Zubkov da Bakıda keçirilən Avrasiya İqtisadi Forumu çərçivəsində jurnalistlərə açıqlamasında Türkiyədəki qaz habının hamıya, o cümlədən Azərbaycana da sərfəli olduğunu diqqətə çatdırıb. Viktor Zubkov, eyni zamanda, bu layihənin sadəcə böyük əhəmiyyətini dərk etməyin və bu məsələ ilə ciddi məşğul olmağın vaxtı çatdığını xatırladaraq, Türkiyənin də bu istiqamətdə həyata keçiriləcək tədbirlərə müsbət münasibətini vurğulayıb. Hadisələrin gedişi göstərir ki, Avropa İttifaqının Rusiyadan birbaşa təbii qaz almaqdan imtinası fonunda Türkiyə üçün yeni fürsətlər yaranmış "enerji müharibəsi" vəziyyətindən həm istehlakçı Avropa, həm də istehsalçı Rusiya ziyan çəkir. Bu məsələnin çözümü Türkiyə vasitəsilə mümkün ola bilər. Hazırda Türkiyədə enerji qovşağının yaradılması ilə bağlı görülən işlər sayəsində qardaş ölkə təbii qazın paylanması mərkəzinə çevriləcək. Türkiyə ərazisindən yeddi ixrac qaz kəmərinin keçdiyini, ölkədə iki mayeləşdirilmiş təbii qaz terminalı, iki üzən mayeləşdirilmiş təbii qaz saxlama və qazlaşdırma qurğusu və iki yeraltı qaz anbarı olduğunu nəzərə alsaq, qardaş ölkə bunun üçün hazırdır. İndi hesab edilir ki, qarşıdakı dövrdə Türkmənistan qazı da Azərbaycan üzərindən Türkiyəyə çatdırılacaq. Bunun üçün mühüm təşəbbüslər də irəli sürülüb. "Türkmənqaz" Dövlət Konserninin rəhbəri Batır Amanov bəyan edib ki, Türkmənistan Avropaya qaz nəql etmək istəyir. Qeyd edək ki, bütün Xəzəryanı ölkələr tərəfindən qəbul edilmiş Xəzərin statusu haqqında Konvensiyaya əsasən, sahilyanı ölkələr arasında boru kəmərinin çəkilişi onların özlərilə razılaşdırılır. Boru kəməri yüksək ekoloji standartlara cavab verməlidir. Türkmənistanda təkcə kəşf edilmiş təbii qaz ehtiyatları 16 trilyon kubmetrdir. Bu da kifayət qədər böyük potensialdır. Bu potensialın Türkiyə üzərindən Avropaya çatdırılmasında Azərbaycan əsas rollardan birini oynayacaq.

Bununla yanaşı, Türkiyə Azərbaycana yatırılan və Azərbaycanın yatırdığı investisiyaların həcminə görə də önəmli yer tutur. Mərkəzi Bankın məlumatına görə, 2022-ci ildə Türkiyədən Azərbaycan iqtisadiyyatına 1 milyard 187 milyon dollar dəyərində birbaşa investisiya cəlb edilib. Bu göstərici ilə Türkiyə Böyük Britaniyadan sonra Azərbaycana ən çox yatırım edən ölkə adını qazanıb. Azərbaycana cəlb edilən investisiyaların 19 faizi də, "Azadlıq" radiosunun məlumatına əsasən, Türkiyə ilə bağlıdır. Diqqətçəkən daha bir məqam son illər ərzində Türkiyədən Azərbaycana yatırılan investisiya həcminin ardıcıl artmasıdır. 2020-ci ildə Türkiyədən Azərbaycana yatırımlar 577 milyon dollar, 2021-ci ildə 740 milyon dollar, ötən ilsə 1 milyard 187 milyon dollar olub. Azərbaycanın xarici ölkələrə yatırdığı investisiyalara görə Türkiyə birinci yeri tutur. 2022-ci ildə Azərbaycandan Türkiyə iqtisadiyyatına 247 milyon dollar yatırılıb. Bu, 2021-ci illə müqayisədə 33 milyon dollar az olsa da, Türkiyə 21.4 faizlik payla hələ də liderdir. Türkiyənin ən böyük xarici yatırımçısı Azərbaycandır. Dövlət Neft Şirkəti (SOCAR) indiyədək Türkiyənin neft-kimya sənayesinə 18 milyard dollar yatırıb. Təkcə ötən il Türkiyədə Azərbaycan sərmayəli 56 şirkət qurulub. Bu göstərici ilə Azərbaycan vətəndaşları Türkiyədə ən çox şirkət quran əcnəbilər arasında Rusiya, Almaniya və ABŞ-dan sonra dördüncü yerə çıxıb. Azərbaycana gələn və Azərbaycandan göndərilən pul köçürmələrinin həcminə görə də Türkiyə lider ölkələr sırasındadır. Ötən il Azərbaycandan xarici ölkələrə toplam 665 milyon dollar göndərilib. Bunun 174 milyon dollar - 26 faizi Türkiyənin payına düşür. Bu göstərici ilə Türkiyə Azərbaycandan ən çox pul köçürülən ölkə adını qazanıb. Türkiyədənsə Azərbaycana ötən il 122 milyon dollar köçürülüb. Bu, Azərbaycana göndərilən toplam pul köçürmələrinin 3.4 faizidir. Həmin göstərici ilə Türkiyə Rusiya və ABŞ-dan sonra Azərbaycana ən çox pul göndərən üçüncü ölkədir. Türkiyə miqrasiya qurumunun məlumatına görə, hazırda bu ölkədə 70 min 148 Azərbaycan vətəndaşı rəsmi yaşayış icazəsi, yəni oturum izni ilə yaşamaqdadır. Sırf xarici tələbələrin sayına görə isə, azərbaycanlılar liderdir. Hazırda 18 min 576 Azərbaycan vətəndaşının Türkiyədə tələbə kimi yaşayış icazəsi var. Türkiyə vətəndaşları ilə ailə qurmağa görə verilən yaşayış icazəsinə görə də lider ölkə Azərbaycandır. İndi 13 mindən çox Azərbaycan vətəndaşı belə icazə ilə Türkiyədə yaşayır. Hesab edilir ki, qardaş ölkədə prezident və parlament seçkilərindən sonra Azərbaycanla Türkiyə arasında iqtisadi müstəvidə də qarşılıqlı əlaqələr daha da güclənəcək.

*Ramil QULİYEV*